

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 16 (23.428)

*28 yanvar 2020-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Dünya İqtisadi Forumu çərçivəsində Davosda Rusiyanın "Rossiya-24" televiziya kanalına müsahibə verib. "Rossiya-1" və "Rossiya-24" kanalları dövlətimizin başçısının müsahibəsini yayımlayıb.

Prezident İlham Əliyev aparıcının Yaxın Şərqdə müşahidə olunan gərginliyin neftin qiymətinin dinamikasına təsiri, "OPEK+" sazişinin müddətinin uzadılmasının mümkünlüyü, bu gün dünyada çoxqütblülük əlamətlərinin olması ilə bağlı və digər sualları cavablandırıb.




# Muzeylərimiz ziyarət edilib



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" 2014-cü il 19 dekabr tarixli Sərəncamına uyğun olaraq muxtar respublikada dövlət orqanları əməkdaşlarının muzeylərə kollektiv gedişi davam edir.***

Yanvarın 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin kollektivləri Cəlil Məmmədquluzadənin Naxçıvan şəhərindəki ev-muzeyini ziyarət ediblər.

Məlumat verilib ki, Azərbaycanın görkəmli dramaturqu və nasiri Cəlil Məmmədquluzadənin xatirəsini əbədiləşdirmək üçün onun doğulduğu Naxçıvan şəhərində ev-muzeyinin yaradılması haqqında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1998-ci il 19 iyun tarixli Sərəncam imzalayıb, 1999-cu il oktyabrın 13-də muzeyin açılışı olub. Mədəniyyət müəssisəsində görkəmli dramaturqun özünə və ailə üzvlərinə həsr olunmuş rəsm əsərləri, dövrə məxsus məişət əşyaları, ədibin qızı Münəvvər xanımın şəxsi pianosu, ədibin hekayələri əsasında hazırlanmış panoramlar və maketlər nümayiş etdirilir. Muzeyin fondunda 2300-dən artıq eksponat mühafizə olunur. Onların 300-dən çoxu ekspozisiyada nümayiş etdirilir, muzey fondunun zənginləşdirilməsinə diqqət yetirilir, ədibin həyat və yaradıcılığına aid dərslər burada əyani şəkildə keçilir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin əməkdaşları Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksini, Ali Məhkəmənin, Naxçıvan Şəhər Məhkəməsinin və ixtisaslaşdırılmış məhkəmələrin kollektivləri Xatirə Muzeyini, Daxili İşlər Nazirliyinin və nazirliyin Veteranlar Şurasının əməkdaşları Qarabağlar Türbə Kompleksini, Dövlət Təhlükəsizliyi Xidmətinin kollektivi Cəmşid Naxçıvanski Muzeyini, Naxçıvan Muxtar Respublikası Prokurorluğu, Hərbi Prokurorluq və Naxçıvan Şəhər Prokurorluğunun əməkdaşları "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksini, Ədliyyə Nazirliyinin və Penitensiar Xidmətin kollektivləri Naxçıvan Dövlət Xalça Muzeyini, Fövqəladə Hallar Nazirliyinin və struktur qurumlarının əməkdaşları "Əlincəqala" Tarix-Mədəniyyət Muzey Kompleksi və Gülüstan türbəsini, Dövlət Gömrük Komitəsinin kollektivi "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının əməkdaşları Ədəbiyyat Muzeyini ziyarət ediblər.

Maliyyə Nazirliyinin kollektivi Naxçıvan Dövlət Tarix Muzeyində, İqtisadiyyat Nazirliyinin kollektivi Heydər Əliyev Muzeyində, Dövlət Vergi Xidmətinin əməkdaşları Dövlət Bayrağı Muzeyində, Dövlət Nəqliyyat Xidmətinin əməkdaşları Bəhruz Kəngərli Muzeyində, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kollektivi Nəbatat bağında, Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları Naxçıvan Dövlət Rəsm Qalereyasında, Təhsil, Mədəniyyət, Gənclər və İdman nazirliklərinin, Dövlət İmtahan Mərkəzinin Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin kollektivləri Biznes Mərkəzində, Dövlət Televiziya və Radio Verilişləri Komitəsi, "Şərq qapısı" qəzeti redaksiyasının və Televiziya və Radio Şurasının əməkdaşları Duz Muzeyində olublar.

Qeyd edək ki, yanvarın 25-də muxtar respublikanın şəhər və rayon İcra hakimiyyətlərinin, eləcə də mərkəzi icra hakimiyyəti orqanlarının şəhər və rayonlardakı idarə, müəssisə və təşkilatlarının əməkdaşları Naxçıvan Dövlət Tarix Muzeyi və kənd yaşayış məntəqələrində fəaliyyət göstərən muzeyləri ziyarət ediblər.

**Nail ƏSGƏROV**

# Nağdsız ödənişlərin sayı artır

Nağdsız ödəmələrin səviyyəsinin artırılması və nağd əməliyyatların minimuma endirilməsi vergi orqanının qarşısında əsas vəzifə hesab olunur. Bu istiqamətdə görülən işlər çərçivəsində Naxçıvan şəhərində 1 yanvar 2020-ci il tarixə 575 ədəd POS-terminal quraşdırılıb, qurğuların istifadə vəziyyətinin nəzarətdə saxlanılması məqsədilə mütəmadi monitorinqlər keçirilib. Nəticədə, POS-terminallar üzrə nağdsız dövriyyənin həcmi 2019-cu ildə 5 milyon 231 min 81 manat olub ki, bu da 2018-ci illə müqayisədə 2 milyon 125 min 829 manat çoxdur.

Vergitutma bazasının genişləndirilməsi, vergidənyayınma hallarının qarşısının alınması da Naxçıvan Şəhər Vergilər İdarəsi tərəfindən daim diqqət mərkəzində saxlanılıb. 2019-cu ildə də bu istiqamətdə aparılan araşdırmalar, eləcə də maarifləndirmə işlərinin görülməsi nəticəsində öz əmlaklarını icarəyə verən şəxslər tərəfindən əldə etdikləri gəlirlərə görə ödəməli olduqları vergilərdə artımlara nail olunub.

**Xəbərlər şöbəsi**

# Ötən il sahibkarlarımız üçün də uğurlu olub

*Sabitlik və işgüzar fəallığın bərqərar olduğu cəmiyyətimizdə sahibkarlıq fəaliyyəti iqtisadi və mədəni inkişafda mühüm rola malikdir. Tətbiq olunan yeniliklərlə insan həyatında müsbət keyfiyyət dəyişiklikləri yaradan sahibkarlıq, bu mənada, həm də böyük məsuliyyət sahəsidir. Əhali tələbatlarını və dövlətin qarşıya qoyduğu prioritetləri əsas tutaraq özünün fəaliyyət proqramını quran hər bir sahibkarın uğur qazanmasının da sirri bundadır.*





Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyası da işini bu istiqamətdə təşkil edərək sahibkarların uğurlu biznes fəaliyyətinə öz dəstəyini göstərir. Qurumdan aldığımız məlumata əsasən 33 üzvü özündə birləşdirən konfederasiyada sənaye və ərzaq məhsulları, mebel və tikinti materialları istehsalı, tibb və ticarət xidmətləri üzrə geniş profildə fəaliyyət göstərən iş adamları vardır. Muxtar respublikamızın müasir sosial-iqtisadi inkişafında yaxından iştirak edən bu sahibkarlar konfederasiya ətrafında birləşərək öz işlərini günün tələbləri və verilmiş tapşırıqlar istiqamətində qurublar. Belə ki, təkcə 2019-cu ildə muxtar respublikada sahibkarlıq subyektləri tərəfindən dövlət dəstəyi və özəl investisiya hesabına iqtisadi fəaliyyətin müxtəlif sahələrində 72 yeni layihə üzrə istehsal və xidmət obyektlərinin fəaliyyətə başlaması davamlı inkişafın əsas göstəricilərindən biri kimi bunun təsdiqidir. Ümumilikdə isə sahibkarlıqla bağlı həyata keçirilən ardıcıl tədbirlər muxtar respublikanın istehsal sahələrinin genişlənməsinə və iqtisadiyyatın çoxsahəli inkişafına səbəb olub. Belə ki, ötən il sahibkarlara 24 milyon 546 min manat kredit verilmiş, istehsal və xidmət sahələri fəaliyyətə başlamış, 37 hüquqi və 3459 fiziki şəxs dövlət qeydiyyatına alınmışdır. Sahibkarlığın hazırkı inkişaf səviyyəsinin nəticəsidir ki, bu gün muxtar respublikada 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat isə tamamilə yerli istehsal hesabına ödənilir.

Sahibkarlığın inkişafı və onun rəqabətqabiliyyətliliyinin artırılması üçün göstərilən dövlət dəstəyi cəlbedici biznes və investisiya mühitinin formalaşdırılmasında mühüm rola malikdir. Belə ki, müasir dünya iqtisadiyyatında qlobal rəqabətin artması və digər amillər yüksək risklər yaradır. Dünyada təbii resursların getdikcə tükənməsi, istehsalda yeni texnologiyaların tətbiqi və eyni zamanda məşğulluq məsələlərinin həlli, bu mənada, ölkəmizdə olduğu kimi, muxtar respublikamızda da dinamik iqtisadi artımın təmin olunması üçün daim yeni yollar axtarılmasını gündəmə gətirir. Belə bir şəraitdə vahid bir konfederasiya ətrafında birləşən muxtar respublika sahibkarlarının məqsədi, şübhəsiz ki, ilk növbədə, doğma Naxçıvanımızın daha da çiçəklənməsi üçün yeni, səmərəli layihələrlə çıxış etmək, daxili bazarda məhsul bolluğu yaratmaq, daha keyfiyyətli xidmətlər təşkil etmək olmalıdır. Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyası muxtar respublikada biznes fəaliyyətinə başlamaq istəyən iş adamlarına düzgün istiqamət verməyi özünün əsas vəzifələrindən biri hesab edir. Bu baxımdan konfederasiya sahibkarların hüquqlarının qorunmasına, onların dövlət orqanları və beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edərək yaradılmış şəraitdən maksimum istifadələrinə köməklik göstərməyə çalışır. Hazırda muxtar respublikamızda yaradılmış əlverişli biznes mühiti bunun üçün geniş imkanlar açıb. Belə ki, bazar iqtisadiyyatı daimi olaraq sahibkar qarşısında müəyyən problemlərin həll olunmasını tələb etdiyindən konfederasiyanın əsas vəzifələrindən biri də biznesə yeni başlayan iş adamlarına metodoloji dəstək verməkdir. Çünki hər bir sahibkarın yeni bazar imkanlarını qiymətləndirməsi üçün ilk olaraq informasiya təminatına ehtiyacı vardır. Beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə konfederasiya üzvləri dünyanın bir çox biznes qurumları ilə sərbəst əlaqələr saxlayır, sərgi və forumlara dəvətlər alır, işgüzar görüşlər keçirirlər. Ötən il ölkə daxilində və xaricdə keçirilən 33 tədbirdə 150 naxçıvanlı sahibkarın iştirakının təmin olunması bu baxımdan onların uğurlu fəaliyyətinə dəstək olub.

Muxtar respublikada hər bir sahibkarın uğuruna xüsusi diqqət göstərilir, onların səmərəli fəaliyyətləri dövlət tərəfindən yüksək qiymətləndirilir. Belə bir stimul isə onların gələcəkdə daha uğurlu layihələr həyata keçirmələri üçün çox əhəmiyyətlidir. Çünki Naxçıvanın uğurları artdıqca irəlidə daha yeni layihələr bizi gözləyir.

**Əli CABBAROV**

*Kənd təsərrüfatının inkişaf etdirilməsi bütün dövrlərdə prioritet məsələlərdən sayılıb. Çünki bu sahənin inkişafı ərzaq məhsulları ilə etibarlı təminata zəmin yaradaraq strateji önəm kəsb edir. Naxçıvan Muxtar Respublikasının da əlverişli iqlim şəraiti, bərəkətli, münbit torpaqları, kənd təsərrüfatının inkişafına hərtərəfli dövlət qayğısının göstərilməsi mövcud torpaq potensialından səmərəli istifadə edilməsinə, həmçinin əkin dövriyyəsinin genişləndirilməsinə hərtərəfli şərait yaradıb.*

# “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti aqrar sahənin inkişafına töhfəsini verir

Ötən dövrdə suvarma suyuna olan tələbatın ödənilməsi, torpaq mülkiyyətçilərinə güzəştli şərtlərlə kreditlərin və müasir kənd təsərrüfatı texnikalarının verilməsi, aqrotexniki xidmət sarıdan köməkliklərin göstərilməsi də bu sahənin inkişafına öz müsbət təsirini göstərib. Təbii ki, əkin-biçin kampaniyasının mütəşəkkil keçirilməsində, yetişdirilən məhsulun vaxtında və itkisiz toplanmasında müasir kənd təsərrüfatı texnikalarından səmərəli istifadə mühüm əhəmiyyət daşıyır. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 28 yanvar tarixli Sərəncamı ilə yaradılmış “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti muxtar respublikada kənd təsərrüfatının inkişafında böyük rol oynayır.

Cəmiyyətin əsas fəaliyyət istiqaməti muxtar respublikada kənd təsərrüfatı texnikası çatışmazlığının aradan qaldırılmasını, fermerlərə güzəştli şərtlərlə texnika və avadanlıqların lizinq yolu ilə verilməsini, habelə mineral gübrələrin, damazlıq mal-qaranın, məhsuldar toxum sortlarının alınaraq uyğun qiymətlərlə sahibkarlara satışını təşkil etməkdən ibarətdir. Ötən müddətdə bu sahədə mühüm irəliləyişlərə nail olunub, fermerlər göstərilən dövlət qayğısından lazımınca yararlanıblar. Eyni zamanda göstərilən aqrolizinq xidmətləri də ildən-ilə öz keyfiyyətini yüksəldərək bu həllivacib sahəyə öz töhfəsini verib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2015-ci il aprelin 6-da muxtar respublikada “Kənd təsərrüfatı ili”ndə qarşıda duran vəzifələrlə bağlı müşavirədə demişdir: ***“…Hazırda ölkəmizdə kənd təsərrüfatının inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Əvvəllər kənd təsərrüfatı texnikaları torpaq mülkiyyətçilərinə və fermerlərə 10 il müddətinə lizinqə verilir, mineral gübrələr isə 50 faiz güzəştlə satılırdı. Lakin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin kənd təsərrüfatının inkişafının stimullaşdırılması məqsədilə imzaladığı 2014-cü il 16 aprel tarixli Fərmanına əsasən, kənd təsərrüfatı texnikaları lizinqə verilərkən dəyərinin 20 faizi ödənildikdə dövlət büdcəsi hesabına onların ilkin dəyərinin 40 faizi həcmində güzəşt tətbiq edilməsi, eləcə də mineral gübrələrin 70 faiz güzəştlə satışının həyata keçirilməsi qərara alınmışdır. Qəbul edilən bu qərarlar yerlərdə aqrolizinq xidmətləri tərəfindən həyata keçirilir. “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti 2005-ci ilin yanvar ayından fəaliyyət göstərir. Ötən dövrdə cəmiyyətin muxtar respublikanın rayonlarında bazaları yaradılaraq lazımi texnika və avadanlıqlarla təchiz olunmuş, kollektiv üzərinə düşən vəzifələri yerinə yetirmişdir”.***

Bəli, yaradılmasından ötən 15 il ərzində “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti böyük bir inkişaf yolu keçib. Cəmiyyətin ötən dövr ərzində fəaliyyətinə nəzər salsaq, görərik ki, əgər 2006-cı ildə muxtar respublikaya 82 ədəd kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqları gətirilmişdirsə, 2019-cu ildə gətirilən yeni texnikaların sayı 364 ədəd təşkil etmiş, ümumilikdə, sayı 2739 ədədə çatdırılmışdır. Bu texnika və texnoloji avadanlıqların ardıcıl olaraq hər il fermerlərə güzəştli şərtlərlə satışı təşkil edilmiş, bu günədək onlardan 2111 ədədi lizinq, 166 ədədi isə nağd və köçürmə yolu ilə hüquqi və fiziki şəxslərə satılmışdır. Ümumilikdə, muxtar respublika üzrə nağd, köçürmə və lizinq yolu ilə satılan texnika və texnoloji avadanlıqların sayı 2277 ədəd təşkil etmişdir.



Vurğulamaq lazımdır ki, ötən dövrdə cəmiyyətin rayon bazalarında yaradılmış və bu bazalarda inzibati binalar, anbar, texniki park və təmir sexləri tikilib istifadəyə verilmiş, maddi-texniki baza gücləndirilmiş, gətirilmiş texnika və texnoloji avadanlıqların əkin sahələrinə uyğun bölgüsü aparılmışdır. Qeyd edək ki, lizinq yolu ilə satılan texnikaların ehtiyat hissələrinin alınması da cəmiyyət tərəfindən diqqət mərkəzində saxlanılır. Hazırda cəmiyyətə məxsus anbarlarda müxtəlif kənd təsərrüfatı texnikalarının ehtiyat hissələri vardır. Məhz torpaq mülkiyyətçilərinin əlindən tutan bu cür müasir texnika və avadanlıqlar əkin sahələrində mütərəqqi aqrotexniki qaydaların tətbiqinə imkan verir. Həmçinin cəmiyyətin bazalarında torpaq mülkiyyətçilərinə yardım məqsədilə texniki servis xidmətləri də göstərilir.



Torpaq mülkiyyətçilərinə mühüm dəstəklərdən biri də əkin sahələrinin mineral gübrələrə olan ehtiyacının ödənilməsidir. Hazırda ölkə başçısının müvafiq fərmanı ilə mineral gübrələrin fermerlərə 70 faiz güzəştlə satışı təmin olunmuşdur. Yeri gəlmişkən, artıq cari il yanvarın 27-dən əkinçiliklə məşğul olan torpaq mülkiyyətçilərinə mineral gübrələrin verilməsinə başlanılıb.

Yaradılmış şərait muxtar respublikada yeni torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsinə, meliorativ tədbirlərin həcminin genişləndirilməsinə, yeni fermer təsərrüfatlarının və kənd təsərrüfatı ixtisaslı istehsal müəssisələrinin yaradılmasına imkan verir.

Təsadüfi deyil ki, muxtar respublikada heyvandarlığın inkişaf etdirilməsi yönündə atılan addımlarda da “Naxçıvan Aqrolizinq” ASC-nin böyük rolu var. Xüsusilə xarici ölkələrdən cins mal-qaranın alınıb gətirilərək güzəştli şərtlərlə sahibkarlara satılması bu sahənin inkişaf etdirilməsini stimullaşdırır. Məlumat üçün deyək ki, ötən dövrdə cəmiyyət tərəfindən muxtar respublikaya “Şvis”, “Simmental” və “Holştin friz” cinsi olmaqla, ümumilikdə, 1927 baş damazlıq mal-qara gətirilərək fermerlərə uyğun şərtlərlə satılmışdır. Həyata keçirilən bu tədbirlər iribuynuzlu heyvanların cins tərkibinin yaxşılaşdırılmasında əhəmiyyətli rol oynamış, bu da ət və süd istehsalının ilbəil artmasına öz təsirini göstərmişdir.

Vurğulamaq lazımdır ki, əhalisinin 70 faizdən çoxunun kəndlərdə məskunlaşdığı muxtar respublikamız zəngin kənd təsərrüfatı ənənələrinə malikdir. Bu ənənələri uğurla və mütərəqqi vasitələrlə davam etdirmək üçün bu gün münbit şərait mövcuddur. “Naxçıvan Aqrolizinq” ASC də ötən 15 ildə fermerlərə göstərdiyi lazımi dəstəklə aqrar sahədə mühüm nəticələrin qazanılmasına yeni imkanlar açır.

**Səbuhi HƏSƏNOV**

# Baytarlıq xidmətinin düzgün təşkili üçün hərtərəfli şərait yaradılıb

*Hazırda dünyanın ərzaq bazarında ekoloji təmiz, keyfiyyətli kənd təsərrüfatı və ərzaq məhsullarına ciddi ehtiyac duyulur. Ərzaq təhlükəsizliyinin təmin olunmasında heyvandarlıq sektorunun inkişaf etdirilməsi vacib amillərdəndir. Çünki bu, kənd təsərrüfatının ən mühüm sahələrindən biri olmaqla, əhalinin ət, süd, yumurta məhsullarına olan ehtiyacının ödənilməsi ilə yanaşı, sənayenin xammala olan tələbatının təmin edilməsində də mühüm rol oynayır.*





Baytarlıq xidmətinin düzgün təşkili mühüm iqtisadi əhəmiyyətə malik iş hesab edilir. Bu sahənin fəaliyyəti “Baytarlıq haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Bu qanuna uyğun olaraq baytarlıq xidmətinin başlıca vəzifəsi respublika ərazisində insanlar və heyvanlar üçün təhlükəli və kəskin yoluxucu xəstəliklərin qarşısını almaq, ölkədə epizotoloji sabitliyi təmin etməklə əhalinin ərzaq təhlükəsizliyinin təminatında xüsusi rola malik olmasıdır.

Muxtar respublikamızda da bu sahənin inkişafına xüsusi diqqət və qayğı göstərilir. Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin fəaliyyəti burada ayrıca qeyd olunmalıdır. Xidmətin strukturu Elmi-Tədqiqat Baytarlıq Stansiyası, Naxçıvan Muxtar Respublikası Baytarlıq Laboratoriyası, Zoobaytar Təchizatı İdarəsi, 8 şəhər və rayon baytarlıq idarəsi və 7 rayon baytarlıq laboratoriyası, 168 sahə baytarlıq məntəqəsi, 2 dəmiryol nəzarəti məntəqəsi, 8 baytar sanitar ekspertiza laboratoriyasından ibarətdir.

Yaradıldığı vaxtdan bu günədək xidmətin inzibati binası, Elmi-Tədqiqat Baytarlıq Stansiyası, Naxçıvan Muxtar Respublikası Baytarlıq Laboratoriyası, Naxçıvan Şəhər Baytarlıq İdarəsi və Naxçıvan Muxtar Respublikası Zoobaytar Təchizatı İdarəsi üçün binalar yenidən qurulub və ya əsaslı təmir olunub, dərmanların saxlanılması üçün soyuducu kameralar quraşdırılıb. Şərur, Sədərək, Şahbuz Rayon Baytarlıq idarələri üçün yeni binalar tikilib, müasir avadanlıqlarla təmin edilərək istifadəyə verilib.

Təkcə ötən il ərzində Şərur rayonunun Kərimbəyli, Xələc, Yeni Havuş, Alışar, Muğanlı, Qışlaqabbas, Kəngərli rayonunun Böyükdüz, Babək rayonunun Gülşənabad, Kültəpə, Şahbuz rayonunun Türkeş, Ordubad rayonunun Dəstə kəndlərində, 2020-ci ilin əvvəlində isə Ordubad rayonunun Vənənd kəndində baytarlıq məntəqələri və ət satışı mağazaları tikilib, zəruri mebel və avadanlıqlar ilə təmin edilərək istifadəyə verilib.

Babək Rayon Baytarlıq İdarəsinin binası yenidən tikilib, müasir avadanlıqlarla təmin edilib və yaxın günlərdə istifadəyə verilməsi nəzərdə tutulub.

Heyvandarlıq məhsullarının artırılması heyvanların sağlamlığının qorunması ilə yanaşı, onların baş sayının çoxaldılması, mövcud mal-qaranın cins tərkibinin yaxşılaşdırılması və yeni cinslərin yaradılması ilə mümkündür. Buna isə dünyada ən mütərəqqi metod sayılan süni mayalanma üsulunu tətbiq etməklə nail olmaq olar. Muxtar respublikamızda bu üsulun tətbiqinə ilk dəfə olaraq 2002-ci ildə başlanılıb. Bu prosesi həyata keçirmək üçün Babək rayonunun Nehrəm kəndində süni mayalanma məntəqəsi yaradılıb, sonrakı illərdə isə digər şəhər və rayonlarda da belə məntəqələr yaradılaraq onların sayı 23-ə çatdırılıb, bütün məntəqələr yedəkli motosikletlərlə yanaşı, zəruri avadanlıqlar və ləvazimatlarla təmin edilib.

Bütün bunlar bir daha təsdiq edir ki, muxtar respublikada baytarlıq xidmətinin düzgün təşkili üçün hərtərəfli şərait yaradılıb, bu da daxili bazarın keyfiyyətli heyvandarlıq məhsulları ilə təmin olunmasına, eyni zamanda həmin məhsulların ixracına geniş imkanlar açır.

**Elnur ƏLİYEV**
***Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin əməkdaşı***

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası mühüm əhəmiyyətə malikdir.***

# Əhalinin məşğulluğu təmin edilir

Ötən dövr ərzində proqramın icrası ilə əlaqədar olaraq işaxtaran və işsiz şəxslərin məşğulluğunun təmin olunması sahəsində xeyli işlər görülüb. Belə tədbirlər sırasında muxtar respublikanın əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi üzrə təhlillər aparılması, boş iş yerlərinin müəyyən edilməsi xüsusi vurğulanmalıdır. Kənd mərkəzlərində fəaliyyət göstərən xidmət sahələrinin kadrlarla təmin olunması üçün işaxtaran və işsiz şəxslərin Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Naxçıvan Regional Peşə Tədris Mərkəzində müvafiq kurslara cəlb edilməsinə də xüsusi önəm verilir. Ötən il ərzində kənd xidmət mərkəzlərinin kadrlarla təmin olunması üçün tədris mərkəzində bərbər, bərbər-manikürçü və dərzi peşələri üzrə kurslar təşkil edilib. Müdavimlər həmin kursları müvəffəqiyyətlə başa vuraraq sertifikatlar aldıqdan sonra kənd xidmət mərkəzlərindəki vakant yerlərdə işlə təmin olunublar. Qeyd edək ki, 2019-cu il ərzində 23-ü bərbər, 24-ü bərbər-manikürçü və 5-i dərzi peşəsi üzrə olmaqla, ümumilikdə, 52 işaxtaran vətəndaş kənd xidmət mərkəzlərində işə götürülüblər.

Cari ilin əvvəlində Ordubad rayonunun Vənənd kəndində istifadəyə verilmiş xidmət mərkəzində də gözəllik salonu, bərbərxana, dərzi, ət satışı yeri, ərzaq, sənaye və təsərrüfat malları mağazaları, eləcə də 3 anbar yerləşdiyindən burada da artıq 9 nəfər kənd sakini işlə təmin olunub. Təbii ki, əksər yaşayış məntəqələrində belə infrastrukturun yaradılması yerli əhalinin məşğulluq səviyyəsinin yüksəlməsində də mühüm rol oynayır.

Onu da xüsusi vurğulamaq lazımdır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası xüsusi qayğıya ehtiyacı olan şəxslərin özünüməşğulluğunun təmin edilməsi istiqamətində sosial layihələrin icrasına əlverişli zəmin yaradıb. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2019-cu ilin muxtar respublikada “Ailə təsərrüfatları ili” elan olunması burada yeni ailə təsərrüfatlarının formalaşmasına geniş imkanlar açıb. Bu istiqamətdə həyata keçirilən tədbirlər çərçivəsində özünüməşğulluq proqramına cəlb olunmuş aztəminatlı ailələrin üzvlərinə bərbər-manikürçü və dərzi ləvazimatları təqdim edilib və onlar kənd xidmət mərkəzlərində müvafiq peşə sahələri üzrə işlə təmin olunublar.

Göründüyü kimi, 2019-cu il muxtar respublikada əhalinin məşğulluğunun təmin edilməsi baxımından da uğurlu illərdən biri olub. Bu, muxtar respublikamızda insanların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin davamlı xarakter almasının göstəricisidir.

**Elmin FƏRƏCOV**
***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Məşğulluq və miqrasiya şöbəsinin müdiri***

# ATƏT-in uzunmüddətli müşahidəçiləri: “Bu günədək keçirilən görüşlərdən, görülən işlərdən məmnunuq”

Ölkəmizin demokratik dəyərlərinə, vətəndaş cəmiyyətinin maraqlarına əsaslanan növbədənkənar parlament seçkilərinə artıq sayılı günlər qalır. Ötən dövrdə keçirilən seçkilərin nəticələri belə deməyə əsas verir ki, budəfəki seçki prosesi də tam şəffaf və obyektiv şəkildə baş tutacaq. Fevralın 9-na təyin olunan seçkilərin demokratik prinsiplər əsasında, seçki qanunvericiliyinə uyğun keçirilməsi üçün hazırda muxtar respublikamızda da lazımi işlər görülür. Yanvar ayının 7-dən etibarən seçkilərlə əlaqədar ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu rəsmi olaraq müşahidə missiyasına başlayıb. Yanvarın 14-də isə həmin müşahidəçi missiyanın üzvlərindən ikisi muxtar respublikamıza gəlib. Səfər çərçivəsində onlar “Şərq qapısı” qəzeti redaksiyasında da olub, muxtar respublikanın bu əsas kütləvi informasiya vasitəsinin əhalinin seçkilərdə mütəşəkkil iştirakı üçün maarifləndirici materialların dərci, seçkiqabağı və seçki günü proseslərinin işıqlandırılması istiqamətində həyata keçirəcəyi işlərlə tanış olublar. Qonaqlar təəssüratlarını bölüşüblər:



***ATƏT-in uzunmüddətli müşahidəçisi İnqo Büttner:*** – Seçki prosesi barədə onu deyə bilərəm ki, yanvarın 14-dən indiyədək Naxçıvanda Mərkəzi Seçki Komissiyasının, medianın və digər təşkilatların nümayəndələri ilə görüşmüşük, seçkilərin ədalətli, şəffaf keçirilməsi üçün yaradılan şəraitlə yaxından tanış olmuşuq. Bu istiqamətdə keçirilən görüşlərdən razıyıq. Bəzi seçki məntəqələrində də müşahidələr aparmışıq, yaradılan şərait Seçki Məcəlləsinə uyğundur. Seçkiqabağı, eləcə də seçki günü görülən işlər barədə məlumatları Bakıdakı missiya mərkəzinə ötürəcəyik və yekun nəticə orada müəyyənləşəcək.

Bildirim ki, mən Naxçıvana ilk dəfədir, gəlirəm. Təəssüf ki, vaxtın qısalığı və işin çoxluğundan, hələlik, buranı doyunca gəzmək imkanım olmayıb. Ancaq buna baxmayaraq, bizə bələdçilik edənlərdən Naxçıvanın tarixi, təbiəti barədə geniş məlumat əldə etmişəm. Qarşılaşdığımız insanlardan çox isti, mehriban münasibət görmüşük. Güman edirəm ki, seçkiyə bir-iki gün qalmış və yaxud da seçkidən sonra görməli yerləri gəzmək, buranın tarixi, mədəniyyəti, mənəvi dəyərləri barədə əyani surətdə bilgilər öyrənmək fürsətimiz olacaq.



***ATƏT-in uzunmüddətli müşahidəçisi Elizaveta Borisova:*** – İlk olaraq onu deyim ki, ATƏT DTİHB-nin seçki müşahidə missiyası səfir Piter Teylerin başçılığı ilə 12 ekspertdən ibarət əsas heyət və 30 uzunmüddətli müşahidəçi ilə öz işinə başlayıb. Əlavə olaraq seçki günündə icraat prosesini izləmək üçün 350 qısamüddətli müşahidəçinin gəlməsi də nəzərdə tutulub. İnqo Büttnerlə mən Naxçıvana yanvarın 14-də gəlmişik. Əsas fəaliyyət istiqamətlərimiz buradakı seçkiqabağı və seçki günü prosesi izləmək, eləcə də aidiyyəti təşkilatların nümayəndələri ilə görüşlər keçirməkdən ibarətdir. Hələlik, Naxçıvanda yerləşən 7 dairə seçki komissiyasının 3-də olmuşuq, ümumi müşahidələrimiz ürəkaçandır. Ümumilikdə, bu günədək keçirilən görüşlərdən, görülən işlərdən çox məmnunuq.

Qeyd edim ki, bundan öncə üç dəfə Azərbaycandakı seçkilərə qatılmışam. 2018-ci ildə keçirilən Prezident seçkilərində müşahidəçi qismində iştirak etmək üçün Naxçıvan Muxtar Respublikasına gəlmişdim və Şərur-Sədərək Seçki Dairəsi üzrə müşahidələr aparırdım. Həmin vaxt fürsətdən istifadə edib Naxçıvanın təbiət abidələrini də gəzmişdim. Xüsusilə mənim diqqətimi çəkən bu qədim diyarı əhatə edən dağlar və bir də buranın insanlarının da hədsiz sevgisini qazanan Əlincəqala oldu. Qaladan ətrafı seyr etmək, həqiqətən, unudulmaz idi və çox sevinirəm ki, Naxçıvanın bu tarixi abidəsi ilə tanış olmuşam. Bu dəfə imkan tapa bilsəm, daha çox yeri gəzmək istəyirəm.

✍ **Nail ƏSGƏROV**

# Doktorantura və dissertanturaya xarici dil üzrə qəbul imtahanı keçirilib



*Yanvarın 26-da Dövlət İmtahan Mərkəzi doktorantura və dissertanturaya xarici dil üzrə qəbul imtahanı keçirib.*

İmtahan Bakı və Naxçıvan şəhərlərində saat 11[00]-da başlayıb. Bütün binalarda imtahan təlimata uyğun şəkildə keçirilib, iştirakçıların öz bilik səviyyələrini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

İmtahanda namizədlərin xarici dilə yiyələnmə səviyyəsini yoxlayıb-qiymətləndirmək üçün oxuyub-anlama, dinləyib-anlama, dildən istifadə (leksik-qrammatik tapşırıqlar) və yazı bloku (esse yazısı) üzrə tapşırıqlar təqdim olunub. İmtahan sualların cavablandırılmasına və essenin yazılmasına, ümumilikdə, 2 saat 30 dəqiqə vaxt ayrılıb.

Məlumat üçün bildirək ki, 1382 namizəd ingilis, 61 namizəd fransız, 61 namizəd isə alman dili üzrə imtahan vermək üçün qeydiyyatdan keçib. İmtahanların idarə olunması üçün 14 imtahan rəhbəri, 143 zal nəzarətçisi ayrılıb.

Naxçıvan şəhərində 14 nömrəli tam orta məktəbdə 6 zalda keçirilən imtahanda 60-a yaxın namizəd iştirak edib. İmtahanın keçirilməsi üçün 6 nəzarətçi və 1 mühafizəçi regional bölmə əməkdaşı ayrılıb. Namizədlərin toplayacağı maksimal bal 50-dir. 25 və daha yuxarı bal toplamış namizədlər növbəti imtahana buraxılır. Xarici dil üzrə qüvvədə olan B2 və ya daha yüksək səviyyəli beynəlxalq dil sertifikatına (IELTS, TOEFL, TestDaF, DELF, DALF) malik olan namizədlər xarici dil üzrə qəbul imtahanından azad olunurlar.

Qeyd edək ki, imtahanın nəticələri bir həftə ərzində elan olunacaq.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

# Toplantılar davam edir



Naxçıvan Qarnizonu qoşunlarında müxtəlif ixtisaslar üzrə keçirilən toplantılar davam edir.

Yeni tədris ilinə hazırlıq planına uyğun olaraq bölük, batareya komandirləri və müavinləri ilə keçirilən toplantıda zabitlərin döyüş zamanı tabelikdə olan bölmələri idarəetmə bacarıqları və ixtisas hazırlıqları yoxlanılıb.

Nümayiş məşğələlərinə daha çox yer verildiyi toplantıda taktiki-sıra və sıra hazırlığı məşğələlərinin təşkili, hazırlanması və keçirilməsi metodikası göstərilib.

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçirilən dərslər zamanı hüquq hazırlığından “Bölmələrdə cinayət hadisələrinin baş verməsinin qarşısının alınması”, mənəvi-psixoloji hazırlıqdan “Hərbi kollektivi idarəetmə psixologiyası” mövzularında mühazirələr oxunub.

Hazırda digər ixtisaslı hərbi qulluqçuların cəlb olunduğu toplantılar davam edir.

**Nəriman NƏCƏFOV**

# “Abituriyent-2020: buraxılış və qəbul imtahanları, ixtisas seçimi” mövzusunda seminarlara başlanılıb

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərində “Abituriyent-2020: buraxılış və qəbul imtahanları, ixtisas seçimi” mövzusunda seminar keçirilib.***



Abituriyentlərin imtahanlara psixoloji cəhətdən hazır olmaları, imtahan dövrü nələrə diqqət etmələri ilə bağlı onların məlumatlandırılması məqsədilə keçirilən seminarda Təhsil Nazirliyinə birbaşa tabe müəssisələrin və Təhsil Şöbəsinin tabeliyində olan ümumtəhsil məktəblərinin XI siniflərində təhsil alan 110 şagird iştirak edib.

Seminarda Təhsil Nazirliyinin əməkdaşı Ayşən Əsgərova “2020-2021-ci tədris ili üçün bakalavriat səviyyəsi üzrə qəbul planı və 2020-ci ildə keçiriləcək qəbul imtahanının tarixləri”, Naxçıvan Şəhər Təhsil Şöbəsinin baş məsləhətçisi Gülxanım Orucova “Buraxılış və qəbul imtahanlarına hazırlıq, ixtisas seçimi zamanı nələrə diqqət etməli”, Naxçıvan şəhər 13 nömrəli tam orta məktəbin psixoloqu Nubar Abdullayeva “Abituriyentlərə imtahanqabağı psixoloji dəstək” mövzularında çıxış ediblər. Qeyd olunub ki, artıq Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən 2020-ci ildə keçiriləcək ali və orta ixtisas müəssisələrinə qəbul imtahanlarının təqvimi təsdiq olunub. Abituriyentlər buraxılış və qəbul imtahanlarına yaxşı hazırlaşmalı, nəticələrə uyğun düzgün ixtisas seçimi etməlidir.

Onlar topladıqları bala uyğun ali təhsil müəssisəsini düzgün seçməlidirlər. Unutmamalıdırlar ki, imtahanqabağı psixoloji hazırlıq, diqqətin toplanması, stresdən azad olmaq yolları, düzgün qurulmuş hazırlıq prosesi və pozitiv düşüncə, əməl edilməli olan qida rasionunun seçilməsi hər bir məzun üçün vacib məqamlardan hesab olunur. Bütün bunlara düzgün və vaxtında əməl etmək isə hər bir abituriyentin uğur qazanmasına səbəb olan başlıca amillərdəndir.

Bildirilib ki, buraxılış və qəbul imtahanlarına hazırlaşmaq üçün əvvəlcə düzgün, sistemli bir hazırlıq proqramına sahib olmaq lazımdır. İmtahan zamanı vaxtdan səmərəli istifadəetmə, abituriyentin imtahanda bildiyi testdən başlaması onun stress və həyəcanının azalmasına, diqqətini daha asanlıqla toplamasına kömək edəcəkdir.

Seminarda abituriyentlərə buraxılış və qəbul imtahan qaydaları ilə bağlı məlumat verilib və onlara imtahan zamanı qadağan olunan hərəkətlər izah edilib.

Sonda mövzularla bağlı suallar cavablandırılıb, abituriyentlərə imtahanqabağı əlavə tövsiyələr verilib.

Qeyd edək ki, abituriyentlər üçün təşkil olunan seminar muxtar respublikanın rayonlarında da keçiriləcək.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Tələbələr Qarabağlar Türbə Kompleksində

*Naxçıvan Dövlət Universitetinin əcnəbi tələbələri Qarabağlar Türbə Kompleksində olublar. Ziyarətçilərə məlumat verilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında” 2016-cı il 4 iyul tarixli Sərəncamına uyğun olaraq Kəngərli rayonunun Qarabağlar kəndindəki türk-islam mədəniyyətinin nadir nümunələrindən olan Qarabağlar Türbə Kompleksi elmi və tarixi əsaslarla bərpa edilib.*



Bildirilib ki, Qarabağlar Türbə Kompleksi qoşa minarə və onları birləşdirən baştağ, xanəgah və türbədən ibarətdir. Zaman keçdikcə dağıntıya məruz qalan kompleksin əsasını Naxçıvan memarlıq məktəbinin incilərindən olan Qarabağlar türbəsi təşkil edir. Qülləvarı xatirə tikintilərinə aid olan türbə on iki yarımsilindrin birləşməsindən ibarətdir. Diametri 10 metrə yaxın olan, hazırkı vəziyyətdə hündürlüyü 16 metrə çatan Qarabağlar türbəsinin 4 baştağı vardır. Baştağlarının dördündə də baş tərəfində “Qurani-Kərim”in “əl-Mumin” surəsindən 16-cı ayənin son hissəsi yazılıb. Bərpa zamanı abidənin tarixi görkəmi qorunub saxlanılıb.

Universitetin ümumi işlər üzrə prorektoru Xəyal Camalov əcnəbi tələbələrə Naxçıvanın tarixi, mədəniyyəti haqqında məlumat verib. Bildirilib ki, bu qədim diyar olduqca zəngin tarixə malikdir. Bu ulu torpaq tarixi-mədəni abidələri ilə öz qədim keçmişindən xəbər verir. Vurğulanıb ki, qədim tarixi özündə əks etdirən memarlıq tikililərinə malik olan Naxçıvan bəşəriyyətin beşiyi, sivilizasiyanın məskənidir.

Xarici tələbələr üzrə dekan Ceyran Quliyeva diqqətə çatdırıb ki, əcnəbi tələbələrin sayına görə Naxçıvan Dövlət Universiteti Azərbaycan universitetləri arasında liderliyini qoruyub saxlayır. Bu da universitetdə xarici tələbələrə göstərilən yüksək dövlət qayğısı ilə birbaşa bağlıdır. Tariximizin tanıdılması istiqamətində, xarici tələbələrin asudə vaxtlarının səmərəli təşkilində bu cür ekskursiyaların əhəmiyyəti vurğulanıb.

Ekskursiyanın sonunda əcnəbi tələbələr üçün “Görüş yeri” kafesində çay və yemək süfrəsi təşkil edilib. Banqladeşli tələbə MD Tanvir Rahman, nigeriyalı tələbə Rotimi Adekunle qeyd ediblər ki, Naxçıvanda onlar təhlükəsizlik cəhətdən özlərini rahat və güvəndə hiss edirlər. “Sizin qonaqpərvərliyiniz bizim üçün ideal bir örnəkdir”, – deyən tələbələr onlara yaradılan şərait üçün minnətdarlıqlarını ifadə ediblər.

**Səadət ƏLİYEVA**

# Gənclər roman müzakirəsində



***Naxçıvan şəhərində yerləşən “Kitab kafe”də Teodor Drayzerin “Dahi” romanının müzakirəsi keçirilib.***

Əvvəlcə Gənclər və İdman Nazirliyinin şöbə müdiri Ayaz Cabbarov çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına əsasən “Oxunması zəruri olan kitabların” siyahısına daxil olan əsərlərin təbliği ilə bağlı nazirlik tərəfindən bir sıra tədbirlər keçirilir. Belə tədbirlərin məqsədi gənc nəsildə vətənpərvərlik, tarixə, milli köklərə bağlılığın formalaşdırılması, onların kənar təsirlərdən qorunması üçün dünyagörüşünün zənginləşdirilməsi, dövlətə, dövlətçiliyə, Vətənə, xalqa bağlılıq hisslərinin, mütaliə vərdişlərinin aşılanması, intellektual səviyyələrinin yüksəldilməsi və asudə vaxtlarının səmərəli təşkil olunmasıdır.

Daha sonra AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, yazıçı Nərgiz İsmayılova çıxış edərək Teodor Drayzerin həyatı, yaradıcılığı və “Dahi” romanı haqqında ətraflı məlumat verib. Əsərin məziyyətlərindən danışan alim bildirib ki, dünya ədəbiyyatında realizmin ən görkəmli nümayəndələrindən olanTeodor Drayzer bu romanı yazmaqla insan həyatının mənasını təhlil edir, yaşam uğrunda mübarizəsini göstərir. Müxtəliftəbiətli, fərqli dünyagörüşlü çoxsaylı obrazlar yaradan yazıçı əsərini sadə bir rəssamın həyat tərzi, yaradıcılığı, uğuru, sənətkarın mənəvi faciəsi üzərində qurmaqla mükəmməl bir əsər yaradıb.

Sonra çay süfrəsi ətrafında kitabın müzakirəsi keçirilib, gənclər kitab haqqında öz fikir və təəssüratlarını bölüşüb, onları maraqlandıran suallar cavablandırılıb.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin və “Gənclərin İntellektual İnkişaf Mərkəzi” İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə 20 gənc iştirak edib.

✍ **Ceyhun MƏMMƏDOV**

# Şaxtalı qış gününün coşqun istirahəti



***Qaynar turizm mövsümü deyiləndə ilk olaraq ağlımıza isti yay günləri gəlir. Bu səbəbdəndir ki, mənalı istirahət etmək istəyənlər, adətən, mövsümün isti vaxtlarını seçirlər. Ancaq istirahətə daha çox vaxt ayıran insanlarla söhbət zamanı məlum olur ki, qış aylarındakı istirahət digərlərinə nisbətən daha xoştəəssüratlı və yaddaqalan olur. Ümumdünya Turizm Təşkilatının statistikasına əsasən hər il dünya üzrə turistlərin, təxminən, 30-35 faizi istirahət mərkəzlərinə məhz qış aylarında üz tutur. Bu artıq muxtar respublikamızda da özünü göstərməkdədir. Bu gün Naxçıvanda yüksək turizm infrastrukturunun formalaşdırılması istiqamətində görülən işlərin nəticəsi olaraq qış turizminə maraq daha da artıb. Belə ki, son günlərdə Ağbulaq Xizək Mərkəzinə üz tutan insanların sosial şəbəkələrdə paylaşdıqları şəkillər marağımıza səbəb oldu. "Yüz eşitməkdənsə, bir dəfə görmək yaxşıdır", – deyib qərara aldıq ki, həm həftəsonu iş mühitindən uzaqlaşaq, həm də istirahət gününü yaxşı dəyərləndirək. Bunun üçün Şahbuz rayonuna – Ağbulaq Xizək Mərkəzinə yola düşürük.***

Yolboyu daha çox yayda üz tutduğumuz bu yerlərin qışın gətirdiyi bəyaz örpəklə gözəl görüntüsünü heyranlıqla izləyirik. Hava elə gözəl və xoşdur ki... Əvvəldən yağan qar hər yeri ağappaq edib. Xizək Mərkəzinə gedən enişli-yoxuşlu yol çoxdan qar və buzdan təmizlənib. Maşınlar rahatlıqla hərəkət edir. Gedəcəyimiz məkana yaxınlaşdıqca asfalt yolun sağ və solunda qarın üzərində cığırlar açan heyvanların ayaq izləri diqqətimizi çəkir. Zirvəsi qarlı dağlar isə sanki məşhur bir rəssamın qüsursuz fırça işidir. Əzəmətli dağların zirvəsinə enən buludların əsrarəngiz görüntüsünü, füsunkar təbiət mənzərələrini seyr edərkən düşünürük ki, bir neçə il bundan öncəyə qədər biz qış aylarında istirahət üçün üz tutacaq yerlər tapa bilmirdik. Qusar rayonundakı "Şahdağ" Qış-Yay Turizm Kompleksinə, qonşu ölkələrdəki turizm obyektlərinə həsrətlə baxırdıq. Həm vaxt məhdudiyyəti, həm də maddi imkanlar başqa yerlərdəki istirahət məkanlarına getməyimizi çətinləşdirirdi. Muxtar respublikamızda insan amilinə verilən dəyərin ifadəsi olaraq belə istirahət məkanlarının yaradılması onların asudə vaxtlarının və istirahətlərinin yüksək səviyyədə təşkili baxımından çox sevindiricidir.





Naxçıvan şəhərindən Ağbulağa uzanan abad yollarla 30-35 dəqiqəyə Xizək mərkəzinə çatırıq. Qış turizm mövsümü yenicə başlasa da, ağappaq qarın əhatəsində istirahət etmək arzusunda olan xeyli insanın buraya üz tutduğunun şahidi oluruq. Xizək, qar motosikleti sürən insanların şən səsləri bir-birinə qarışır...

Bizə uşaqlığımızı xatırladan uşaqların ətrafda qar üstündə sürüşməsini, bir-biri ilə qartopu oynamasını seyr etdikcə, şən, sevinc dolu gülüşlərini eşitdikcə insan qürur hissi duyur. Düşünürsən ki, bizim blokadanın o çətin illərinə təsadüf edən uşaqlığımızdan fərqli olaraq gələcəyimiz olan bu uşaqlar nə qədər xoşbəxtdirlər. Şükürlər olsun ki, onlar azad, müstəqil Azərbaycanda boya-başa çatırlar.

Öyrənirik ki, qonaqlar arasında xizək sürməyə maraq daha çoxdur. Məlumat üçün qeyd edək ki, burada dağ xizəkçiliyinin inkişafı üçün təbii şəraitin olması bu yaxınlarda istifadəyə veriləcək Xizək mərkəzinin yaradılması ilə nəticələnib. Artıq dağ-xizək enişinin bir hissəsi hazırdır. Burada dağ-xizək enişinin, kanat yolunun, xizəksürmə məktəbinin, əyləncə və uşaq parklarının yaradılması, süni qaryaratma sistemlərinin qurulması istiqamətində işlər davam etdirilir. Hazırda kanat yolu qurulmaqdadır. 952 metr uzunluqda nəzərdə tutulan kanatın başlanğıc və son dayanacaq yeri arasındakı hündürlük fərqi 267 metr olacaqdır. Kanat yolunda hər biri 4 yerlik olmaqla, 58 oturacaq quraşdırılacaq. Bu da saatda 1000-dən artıq insana xidmət etməyə imkan verəcəkdir. Kanat yolu vasitəsilə Şahbuz rayonunun əsrarəngiz gözəlliyini səmadan izləmək mümkün olacaq.



Xizək mərkəzinə təşkil olunan turun rəhbərləri Fərid Seyidov və Fərman Hacıyevlə həmsöhbət oluruq. Öyrənirik ki, mərkəzə ilk turu da fəal gənclər "Naxçıvanın ilk xizək sürənlərindən ol!" şüarı ilə təşkil ediblər. Fərid Seyidov qeyd edir ki, təşkil olunan hər iki tura Naxçıvanın gəncləri və könüllülərinin marağı daha çoxdur. Budəfəki tur "Ağbulaq ekstrim turu" devizi ilə həyata keçirilir. Burada tur rəhbərliyi tərəfindən Xizək mərkəzində tur iştirakçılarının xizək geyimləri ilə təmin olunması və təlimin keçirilməsi təşkil edilir. Bizimlə bərabər buraya 70-dən çox gənc üz tutub. Tur iştirakçıları iki qrupa bölünüblər. Birinci qrup qar motosikleti, ikinci qrup isə xizək sürmək istəyənlərdən ibarətdir. Peşəkar təlimçilər tur iştirakçılarını bu idman növü barəsində və qaydalar haqqında məlumatlandırıblar. Təlimi uğurla başa vuranlara sərbəst şəkildə xizək sürmək üçün icazə verilib.

Tur rəhbərləri qeyd edir ki, qış turizminin inkişafında Ağbulaq kəndi relyefi və iqlim xüsusiyyətlərinə görə ən uyğun məkandır. Xizək mərkəzinin Ağbulaq kəndini ölkəmizdə və dünyada tanıdacağına inanırıq. Mövsümün sonuna qədər buraya mütəmadi olaraq belə turlar təşkil olunacaq. Məqsədimiz muxtar respublikanın turizm potensialını təbliğ etmək və gələcəkdə buraya daha çox turist cəlbinə nail olmaqdır.

Xizək mərkəzini seyr edərkən xizək sürənlərin bir-biri ilə yarışması və yeni öyrənənlərin səndələyərək sürüşməsi kimi əyləncəli anlara şahidlik edirik. İlk təlimdən sonra xizək sürən Köçəri Hüseynov qeyd edir ki, mən ilk dəfədir, Xizək mərkəzinə gəlmişəm. Burada yaradılan şərait hər bir gənc kimi, məni də ürəkdən sevindirir. Artıq qış aylarında istirahət etmək və bu əyləncəli idman növü ilə məşğul olmaq üçün başqa yerlərə getməyimizə ehtiyac yoxdur. Doğma diyarımızdakı Ağbulaq Xizək Mərkəzinə gəlməklə xoş istirahət edə bilərik. Buradakı xidmətlər də çox münasibdir.

Köçəri Hüseynov söyləyir ki, göründüyü qədər asan olmayan bu idman növü çox maraqlı və əyləncəlidir. İlkin vərdişlərə yiyələnəndən sonra təlimçilər tərəfindən sərbəst xizək sürməyə icazə verilir. Bununla bərabər, burada bizim təhlükəsiz şəkildə istirahət etməyimizə xüsusi diqqət yetirilir.

Ağbulaq Xizək Mərkəzinə ilk dəfə səfər etdiyini bildirən Aysel Eminli həm də xizək sürmənin ilk sevincini yaşadığını söyləyir. Onun dediklərindən: – Uşaq vaxtlarımızın ən xoş əyləncələrindən biri qar üzərində sürüşmək idi. Burada yaradılan şərait nəticəsində həmin xoş xatirələri yenidən yaşayırıq. Ancaq ən əsas fərq ondadır ki, yıxılaraq əzilmək təhlükəsi yoxdur. Təlimçilərin dediklərinə əməl etməklə təhlükəsiz şəkildə xizək sürə bilərik. Qiymətlər də çox münasibdir. Havanın soyuq olması bizi qətiyyən narahat etmir. Əksinə, xizək sürmək bizə bir başqa zövq, yüksək əhval-ruhiyyə, xoş ovqat bəxş edir. Burada olduğum üçün çox xoşbəxtəm. Çünki həm doğma diyarımızın qış fəslində bənzərsiz gözəlliyini seyr etmək, həm rahat və gözəl istirahət, həm də idman növü ilə əyləncəli şəkildə məşğul olmaq imkanımız oldu. Bir sözlə, istirahət vaxtımız çox mənalı keçir, növbəti günlərdə də buraya yenidən üz tutmağı düşünürəm. Yaradılan şəraitə görə dövlətimizə minnətdaram.

Həmsöhbət olduğumuz insanlar mərkəzin onlarda gözəl əhval-ruhiyyə və xoş təəssürat yaratdığını söylədilər. Bir sözlə, belə qənaətə gəldik ki, soyuq qış günündə mənalı istirahət axtaranlar üçün Ağbulaq Xizək Mərkəzi ən ideal məkan olacaq.

✍ **Pərviz HACILI**
**Seyfur HACIMURADOV**

## Ötən ilin yekunları ilə bağlı iclas keçirilib



*Dünən Naxçıvan Muxtar Respublika Stadionunun inzibati binasında Naxçıvan Muxtar Respublikası Kikboksinq Federasiyasının ötən ilin yekunları və qarşıda duran vəzifələrlə bağlı iclası keçirilib.*

İclası giriş sözü ilə açan Kikboksinq Federasiyasının sədri Xəyal Abdullayev bildirib ki, 2019-cu il federasiyanın Babək rayonunun Zeynəddin və Nəhəcir kəndlərində bölmələri yaradılıb, məşqçi-müəllim, hakim və idmançılar vahid idman geyim dəstləri ilə təmin edilib. Muxtar respublikamızda 564 idmançı 30 qrupda bu idman növü ilə məşğuldur. Ötən il ərzində müxtəlif kadetlər, yeniyetmə və gənclər arasında şəhər, rayon və yoldaşlıq görüşləri təşkil edilib. Eyni zamanda ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Heydər Əliyev kuboku" uğrunda kadetlər və yeniyetmələr arasında kikboksinq üzrə Naxçıvan Muxtar Respublikası açıq turniri keçirilib, həmin turnirdə İran, Rusiya və Azərbaycandan birlikdə 12 komanda iştirak edib.

Xəyal Abdullayev diqqətə çatdırıb ki, idmançıların beynəlxalq turnirlərə iştirakı təmin edilib və federasiya idmançıları ölkə səviyyəli turnirlərdən 19, dünya çempionatından 2, beynəlxalq turnirlərdən 6 medal olmaqla, ümumilikdə, 27 medal qazanıblar.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman nazirinin müavini Məcid Seyidov çıxışında vurğulayıb ki, ötən il ərzində Gənclər və İdman Nazirliyinin də təşkilatçılığı ilə bu idman növü üzrə 6 muxtar respublika səviyyəli birincilik, 3 Naxçıvan şəhər birinciliyi, 2 rayon birinciliyi, 1 yoldaşlıq görüşü keçirilib.

Sonra məşqçilərin fikir və təklifləri dinlənilib, il ərzində uğur qazanan məşqçilər və idmançılar mükafatlandırılıblar.

## Güləşçilərimiz ilə uğurla başlayıb

*Bakı şəhərində yeniyetmələr arasında sərbəst güləş üzrə Bakı şəhər açıq birinciliyi keçirilib.*

Birincilikdə Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının iki idmançısı da mübarizə aparıb və uğura imza atıb. Belə ki, 60 kiloqram çəki dərəcəsində Kamal Qasımov birinciliyin qalibi olub. Eyni çəkidə mübarizə aparan Camal Qasımov isə bürünc medal qazanıb.

Sonda qalib idmançılarımız təşkilatçılar tərəfindən mükafatlandırılıblar.

Eyni zamanda Naxçıvan Şəhər Uşaq-Gənclər İdman Məktəbində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!" devizi altında yeniyetmələr (2007-2008-ci illər) arasında keçirilən sərbəst güləş üzrə Naxçıvan şəhər birinciliyinə yekun vurulub.



Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi birincilikdə 11 çəki dərəcəsi üzrə 60 idmançı öz qüvvəsini sınayıb.

Sonda hər çəki dərəcəsində I, II və III yerləri tutan idmançılar təltif olunublar.

## Karateçilərimiz mükafatlandırılıb



Azərbaycan Karate Federasiyaları Assosiasiyası tərəfindən 2019-cu il ərzində yüksək nəticə göstərən idmançıların mükafatlandırılması mərasimi keçirilib.

Mükafatlandırma mərasimində Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının idmançıları da iştirak ediblər. Belə ki, iki idmançımız – Vüsal Seyidov və Rafiq Hüseynli də mükafat alanlar sırasında olub. Hər iki idmançımız ötən ilin yekunlarına əsasən ən yaxşı nəticə göstərən idmançılar adına layiq görülüblər.

✍ **Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Çeşməbasar kəndində yaşamış Həsənova Məhluqə Ələsgər qızının adına olan JN-079A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Pərviz Hacılı
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 74